# AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

## ƏMR

№ 3-ğü-160

**Bakı şəhəri** "04" dekabr 2023-cü il

**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin 2022-ci il 3 fevral tarixli Ü/11 nömrəli əmri ilə təsdiq edilmiş "Kənd təsərrüfatı heyvanlarının identifikasiya edilməsi üçün istifadə olunan xüsusi tanınma nömrələrinə dair Təlimat"da dəyişiklik edilməsi haqqında**

"Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 yanvar tarixli 19 nömrəli Qərarı ilə təsdiq edilmiş "Heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası üzrə baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarət edilməsi və bu məqsədlə hər bir heyvanı və ya heyvanlar qrupunu müşahidə etməyə imkan verən kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsinin aparılması Qaydaları"na uyğun olaraq, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) sədrinin 2022-ci il 3 fevral tarixli Ü/11 nömrəli əmri ilə "Kənd təsərrüfatı heyvanlarının identifikasiya edilməsi üçün istifadə olunan xüsusi tanınma nömrələrinə dair Təlimat" (bundan sonra – Təlimat) təsdiq edilmişdir.

Həmin Təlimatla iri və xırdabuynuzlu heyvanların identikləşdirilməsi məqsədilə onların qulağına taxılan vizual birkada xüsusi tanınma nömrələrinə dair tələblər təsbit edilmişdir. Lakin icraat zamanı xüsusi tanınma nömrələrinin Təlimatda qeyd olunan ölçüdə və qaydada vizual birkada yerləşdirilməsində bəzi çətinliklərin olduğu müəyyən edilmişdir.

Qeyd olunanları nəzərə alaraq, vizual birkalarda xüsusi tanınma nömrələrində müvafiq dəyişikliyin edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 5.5.10-cu yarımbəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Agentlik sədrinin 2022-ci il 3 fevral tarixli Ü/11 nömrəli əmri ilə təsdiq edilmiş Təlimatının 5.6.5-ci və 6.6.5-ci yarımbəndləri aşağıdakı redaksiyalarda verilsin:

**1.1.** "5.6.5. birinci sırada Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin qısaldılmış adı (AQTA) və loqosu, ikinci sırada 6 simvol (ilk iki simvol - ölkə kodu (AZ), sonrakı 1-ci rəqəm heyvan növünün kodu, digər 3 rəqəm isə heyvanın seriya nömrəsindəki ilk rəqəmlər) eyni sıra ilə yazılır. Üçüncü sırada isə heyvanın seriya nömrəsinin sonrakı 6 simvolu qeyd olunmalıdır".

**1.2.** "6.6.5. birinci sırada Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin qısaldılmış adı (AQTA) və loqosu, ikinci sırada 6 simvol (ilk iki simvol - ölkə kodu (AZ), sonrakı 1-ci rəqəm heyvan növünün kodu, digər 3 rəqəm isə heyvanın seriya nömrəsindəki ilk rəqəmlər) eyni sıra ilə yazılır. Üçüncü sırada isə heyvanın seriya nömrəsinin sonrakı 6 simvolu qeyd olunmalıdır".

**2.** Agentlik Aparatının Heyvan sağlamlığı şöbəsi bu əmrdən irəli gələn məsələləri həll etsin.

**3.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu əmrin surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**4.** Bu əmrin icrasına nəzarət Agentlik sədrinin müavini Balarəhim Quliyevə həvalə edilsin.

**Əsas:** Agentlik sədrinin müavini Balarəhim Quliyevin 2023-cü il 15 noyabr tarixli D2/19/006277 nömrəli xidməti məruzəsi.

**Sədr** **Qoşqar Təhməzli**

ƏSLİ İLƏ DÜZDÜR

04.12.2023.

**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**ƏMR**

**№** 4/11

**Bakı şəhəri** "03" fevral 2022 il

**Kənd təsərrüfatı heyvanlarının identifikləşdirilməsi sahəsində fəaliyyətin təşkil edilməsi haqqında**

"Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 yanvar tarixli 19 nömrəli Qərarı ilə təsdiq edilmiş "Heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası üzrə baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarət edilməsi və bu məqsədlə hər bir heyvanı və ya heyvanlar qrupunu müşahidə etməyə imkan verən kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsinin aparılması Qaydaları"nın (bundan sonra – Qaydalar) 1.2-ci bəndinə əsasən, heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası üzrə baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarət etmək məqsədilə hər bir heyvanı və ya heyvanlar qrupunu müşahidə etməyə imkan verən kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsinin aparılması məcburidir.

Bununla əlaqədar, "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın 10.7.1-ci yarımbəndinə əsasən, heyvanların identifikasiyası və qeydiyyatı sisteminin formalaşdırılması və ölkə ərazisində mərhələli şəkildə tətbiqi nəzərdə tutulmuşdur.

Qaydaların 2.1-ci bəndinə əsasən, heyvanların identikləşdirilməsi hər bir kənd təsərrüfatı heyvanına fərdi identikləşdirmə nömrəsinin verilməsindən ibarətdir. İdentikləşdirmə işlərinin aparılması üçün heyvanlar fərdi qaydada birkalanmalıdır (nişanlanmalıdır).

Qaydaların 2.2-ci bəndinə əsasən, heyvanların birkalanması (nişanlanması) üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən müəyyən olunmuş xüsusi tanınma nömrəsindən istifadə edilir.

Qeyd olunanları nəzərə alaraq, hevanların birkalanması (nişanlanması) üçün xüsusi tanınma nömrəsindən istifadə edilməsi məqsədilə, Qaydaların 2.2-ci bəndini və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 5.5.10-cu yarımbəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. "Kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsi üçün istifadə olunan xüsusi tanınma nömrələrinə dair təlimat" (bundan sonra – Təlimat) təsdiq olunsun (əlavə olunur).

2. Agentliyin regional bölmələrinə tapşırılsın:

**2.1.** beynəlxalq standartlara uyğun identifikasiya olunaraq idxal edilmiş heyvanlar haqqında məlumatlar idxal tarixindən ən geci 3 iş günü ərzində Agentliyin müvafiq elektron sisteminə daxil edilsin;

**2.2.** qanunvericiliyin və ya beynəlxalq standartların tələblərinə uyğun identikləşdirilməmiş heyvanlar idxal zamanı təsərrüfatda xüsusi ayrılmış yerlərdə (izolyatorda) karantində saxlanıldığı müddətdə identikləşdirilməni təmin etsin və bu barədə məlumatlar Agentliyin müvafiq elektron sisteminə daxil edilsin.

**3.** Agentlik Aparatının Heyvan sağlamlığı şöbəsinə və Agentliyin tabeliyində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsinə (bundan sonra – İnstitut) tapşırılsın ki, Agentliyin regional bölmə müfəttişlərinin, İnstitutun "Heyvanların İdentifikasiyası Mərkəzi" departamentinin Baytarlıq-sanitariya ekspertizası şöbəsinin baytar həkimlərinin və Agentliyin müvafiq elektron sisteminin digər istifadəçilərinin elektron sistem istifadəsi ilə bağlı təlimatlandırılmasını təşkil etsin.

**4.** İnstituta tapşırılsın ki, nişanlama vasitələrinə qeyd olunacaq xüsusi tanınma nömrələrinin unikallığının təmin edilməsi məqsədilə, idxalçıların, istehsalçıların və ya təchizatçıların müraciəti əsasında onlara xüsusi tanınma nömrələrinin verilməsini təmin etsin və həmin nömrələrin reyestrini aparsın.

**5.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsinə tapşırılsın ki, bu əmrin surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**6.** Bu əmrin icrasına nəzarət Agentliyin sədr müavini **Balarəhim Quliyevə** həvalə edilsin.

**Əsas:** Agentliyin sədr müavini **Balarəhim Quliyevin** 2022-ci il 25 yanvar tarixli D2/19/000297 nömrəli xidməti məruzəsi.

**Sədr** ƏSLİ İLƏ DÜZDÜR **Qoşqar Təhməzli**

03.02.2022.

**Azərbaycan Respublikası**

**Qida Təhlükəsizliyi Agentliyi sədrinin**

**"03" fevral 2022-ci il tarixli**

**4/11 nömrəli əmri ilə təsdiq edilmişdir.**

# KƏND TƏSƏRRÜFATI HEYVANLARININ İDENTİFİKASİYA EDİLMƏSİ ÜÇÜN İSTİFADƏ OLUNAN XÜSUSİ TANINMA NÖMRƏLƏRİNƏ DAİR

# TƏLİMAT

## 1. Ümumi müddəalar

1.1. "Heyvanların identifikasiya edilməsi üçün istifadə olunan xüsusi tanınma nömrələrinə dair Təlimat" (bundan sonra - Təlimat), "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 yanvar tarixli 19 nömrəli Qərarı ilə təsdiq edilmiş "Heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası üzrə baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarət edilməsi və bu məqsədlə hər bir heyvanı və ya heyvanlar qrupunu müşahidə etməyə imkan verən kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsinin aparılması Qaydaları"nın 2.2-ci bəndinə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Təlimat kənd təsərrüfatı heyvanlarının birkalanması (nişanlanması) üçün Agentlik tərəfindən verilən xüsusi tanınma nömrələrinin müəyyən edilməsi ilə bağlı məsələləri tənzimləyir.

1.3. Hər hansı bir səbəbdən yararsız hala düşmüş və ya itmiş vizual nişanlanma vasitələri (birkalar) dublikatı ilə, radiotezlikli nişanlanma vasitələri yeniləri ilə əvəz edilməlidir.

1.4. Boş vizual birkaların üzərinə qeyd ediləcək xüsusi tanınma nömrələri, ştrixkod və logo bu Təlimata uyğun həyata keçirilməlidir.

1.5. Bu Təlimatın əsas məqsədləri aşağıdakılardır:

1.5.1. Heyvanların Qeydiyyatı üzrə Beynəlxalq Komitənin (bundan sonra – İCAR) tələblərinə cavab verən xüsusi tanınma nömrələrindən istifadə edilməsi;

1.5.2. xüsusi tanınma nömrələrinin təkrarçılığının qarşısının alınması;

1.5.3. Bu Təlimatın tələblərinə uyğun olmayan xüsusi tanınma nömrələrinin istifadəsinin qarşısının alınması.

## 2. Xüsusi tanınma nömrələri qeyd olunan vizual birkalara dair ümumi tələblər

2.1. Xüsusi tanınma nömrələri qeyd olunan vizual birkanın milinin ucluğu sərt plastik və ya metal materialdan hazırlanmalıdır.

2.2. Xüsusi tanınma nömrələri qeyd olunan vizual birka heyvanın qulağını asanlıqla deşə bilən möhkəm mil ilə kilidlənməklə bağlanmalıdır. Birka kilidləndikdən sonra qulaqda açılmış deşikdə sərbəst hərəkət etməli və heyvana qıcıqlandırıcı təsir göstərməməlidir. Birkanın kilidləmə mexanizmi yenidən açılmaya və təkrar istifadəyə imkan verməməlidir.

2.3. Birkalama mexanizmi ətraf mühitin temperatur dəyişikliyinə (mənfi 40 °C-dən müsbət 40 °C-ə qədər) davamlı olan sarı rəngli, boyanmamış termoplastik materialdan (poliuretan) olmalıdır.

2.4. Xüsusi tanınma nömrələri qeyd olunan vizual birkanın rənglənməsi vahid şəkildə aparılmalıdır, fərqli kölgələr olmamalıdır.

2.5. Xüsusi tanınma nömrələri qeyd olunan vizual birkada adi gözlə görünən çatlar, qırışlar, duzlaşma təbəqələri, qabıqlar, cızıqlar, sıyrıntılar olmamalıdır.

2.6. Xüsusi tanınma nömrələri qeyd olunan vizual birkanın hər bir üzünün arxa tərəfində birka istehsalçısını dəqiq müəyyənləşdirən xüsusi bir nişan (ticarət markası, loqotip, brend, alt brend və s.) olmalıdır.

2.7. Xüsusi tanınma nömrələri qeyd olunan vizual birka allergik reaksiyalara səbəb olmamalı və tərkibində aşağıdakılar istifadə edilməməlidir:

2.7.1. zəhərli komponentlər;

2.7.2. heyvanlara və ətraf mühitə zərərli təsir göstərən aktiv maddələr;

2.7.3. zəhərli və ya qismən zəhərli maddələr;

2.7.4. qurğuşun, kadmium, xrom və ya civə kimi zərərli ağır metallar;

2.7.5. ozon qatını məhv edən uçucu birləşmələr.

2.8. Xüsusi tanınma nömrələri qeyd olunan vizual birkadakı identikləşdirmə məlumatları istehsalçı və ya təchizatçı tərəfindən lazer vasitəsilə həkk olunmalıdır. Bütün simvollar silinməz, qara rəngə yaxın, oxunabilən qalın şriftlərdən, aydın xəttlərdən ibarət olmalıdır.

2.9. Xüsusi tanınma nömrələri qeyd olunan vizual birkalar və oxuyucular İCAR və Beynəlxalq Standartlaşdırma Təşkilatının tələblərinə cavab verməlidir.

## 3. Xüsusi tanınma nömrələri qeyd olunan radiotezlikli nişanlanma vasitələrinə dair ümumi tələblər

3.1. Xüsusi tanınma nömrələri qeyd olunan radiotezlikli nişanlanma vasitələri HDX (yarım dubleks radiotezlikli birka) və ya FDX-B (tam dubleks radiotezlikli birka) texnologiyaları istifadə edilməlidir.

3.2. Xüsusi tanınma nömrələri qeyd olunan radiotezlikli nişanlanma vasitələri 15 simvoldan ibarət olmalıdır.

3.3. Xüsusi tanınma nömrələri qeyd olunan radiotezlikli nişanlanma vasitələri oxuyucu tərəfindən verilən siqnal ilə aktivləşdirildikdə oxunan bilən olmalıdır.

3.4. Xüsusi tanınma nömrələri qeyd olunan radiotezlikli nişanlanma vasitələri istehsalçı tərəfindən proqramlaşdırılmalı, onların unikallığı təmin edilməli və dəyişdirilməsi mümkünsüz olmalıdır.

3.5. Xüsusi tanınma nömrələri qeyd olunan radiotezlikli nişanlanma vasitələri və oxuyucular İCAR və Beynəlxalq Standartlaşdırma Təşkilatının tələblərinə cavab verməlidir.

## 4. Atlar və dəvələr üçün xüsusi tanınma nömrələri

4.1. Atlar və dəvələr üçün xüsusi tanınma nömrələri radiotezlikli nişanlanma vasitələrində qeyd olunmalıdır.

4.2. Atlar və dəvələr üçün xüsusi tanınma nömrələri qeyd olunan radiotezlikli nişanlanma vasitələri 15 simvoldan ibarət olur və interpretasiyası aşağıdakı kimidir:

4.2.1. 031 – İSO3166 beynəlxalq standartına uyğun olaraq Azərbaycan Respublikası üçün ölkə kodu;

4.2.2. XXX- 3 simvolluq istehsalçı kodu;

4.2.3. 1 – növ (at və dəvələr) kodu;

4.2.4. XXXXXXXX – 8 rəqəm heyvanın seriya nömrəsi.

4.3. Atlar və dəvələr üçün xüsusi tanınma nömrələri qeyd olunan radiotezlikli nişanlanma vasitələrinin ölçüləri: diametri 2,1 mm və uzunluğu 12,5 mm-dən çox olmamalıdır.

## 5. İribuynuzlu heyvanlar üçün xüsusi tanınma nömrələri

5.1. İribuynuzlu heyvanlar üçün xüsusi tanınma nömrələri vizual və radiotezlikli nişanlanma vasitəsinə (birkalara) qeyd olunmalıdır.

5.2. Heyvanın hər iki qulağına taxılan vizual birkada qeyd olunan seriya nömrələri eyni olmalıdır.

5.3. Heyvanın sol qulağına taxılan vizual, sağ qulağına taxılan radiotezlikli nişanlanma vasitəsində (birkada) qeyd olunan seriya nömrələri eyni və ya fərqli ola bilər.

5.4. Vizual birkalarda xüsusi tanınma nömrələri 12 simvoldan ibarət olur və interpretasiyası aşağıdakı kimidir:

5.4.1. AZ – ölkə kodu;

5.4.2. 2 – növ (iribuynuzlu heyvan) kodu;

5.4.3. XXXXXXXXX – 9 rəqəm heyvanın seriya nömrəsi.

5.5. Radiotezlikli nişanlanma vasitəsində (birkada) xüsusi tanınma nömrələri 15 simvoldan ibarət olur və interpretasiyası aşağıdakı kimidir:

5.5.1. 031 – İSO3166 beynəlxalq standarta uyğun olaraq Azərbaycan Respublikası üçün ölkə kodu;

5.5.2. XXX- 3 simvolluq istehsalçı kodu;

5.5.3. 2 – növ (iribuynuzlu heyvan) kodu;

5.5.4. XXXXXXXX – 8 rəqəm heyvanın seriya nömrəsi.

5.6. Vizual birkada xüsusi tanınma nömrələri aşağıdakı qaydada və ölçüdə qeyd olunmalıdır:

5.6.1. birkanın dəlikli hissəsinin uzunluğu 70-85 mm, eni 50-65 mm, milli hissəsinin isə uzunluğu 55-65 mm, eni 55-65 mm olmalıdır;

5.6.2. ölkə kodu Azərbaycan Respublikası üçün birkanın yuxarı hissəsində əks olunur, hündürlüyü ən azı 5 mm olan böyük hərflərlə "AZ" kimi işarələnməlidir;

5.6.3. loqotipinin altında heyvanın identikləşməsini təmin edən ştrixkod yerləşdirilməlidir. Ştrixkodun təsviri olan birkalar üçün boş sahənin eni birkanın sağ və sol uclarından ən azı 4 mm məsafədə, hündürlüyü isə ən azı 8 mm-ə bərabər olmalıdır;

5.6.4. Rəqəmlərin ölçüsü üst sırada minimum 5 mm, aşağı sırada isə 15 mm-dən az olmamalıdır;

5.6.5. birinci sırada Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin logosu, ikinci sırada 5 simvol (ilk iki simvol - ölkə kodu (AZ), sonrakı 1-ci rəqəm heyvan növünün kodu, digər 2 rəqəm isə heyvanın seriya nömrəsindəki ilk rəqəmlər) eyni sıra ilə yazılır. Üçüncü sırada isə heyvanın seriya nömrəsinin sonrakı 7 simvolu qeyd olunmalıdır.

5.7. İribuynuzlu heyvanlar üçün boş vizual birkaların ölçüləri bu Təlimatın 5.6.1-ci yarımbəndində uyğun olmalıdır.

5.8. Xüsusi tanınma nömrələri qeyd olunan radiotezlikli nişanlanma vasitələrinin ölçüləri: mil hissəsinin diametri 22-34 mm, dəlikli hissəsinin diametri 23-35 mm olmalıdır.

## 6. Xırdabuynuzlu heyvanlar üçün xüsusi tanınma nömrələri

6.1. Xırdabuynuzlu heyvanlar üçün xüsusi tanınma nömrələri vizual və radiotezlikli nişanlanma vasitəsinə (birkalara) qeyd olunmalıdır.

6.2. Heyvanın hər iki qulağına taxılan vizual birkada qeyd olunan seriya nömrələri eyni olmalıdır.

6.3. Heyvanın sol qulağına taxılan vizual birkada, sağ qulağına taxılan radiotezlikli nişanlanma vasitəsində qeyd olunan seriya nömrələri eyni və ya fərqli ola bilər.

6.4. Vizual birkalarda xüsusi tanınma nömrələri 12 simvoldan ibarət olur və interpretasiyası aşağıdakı kimidir:

6.4.1. AZ – ölkə kodu;

6.4.2. 4 – rəqəm növ (xırdabuynuzlu heyvan) kodu;

6.4.3. XXXXXXXXX – 9 rəqəm heyvanın seriya nömrəsi.

6.5. Radiotezlikli nişanlanma vasitəsində (birkada) xüsusi tanınma nömrələri 15 simvoldan ibarət olur və interpretasiyası aşağıdakı kimidir:

6.5.1. 031 – İSO3166 beynəlxalq standarta uyğun olaraq Azərbaycan Respublikası üçün ölkə kodu;

6.5.2. XXX - 3 simvolluq istehsalçı kodu;

6.5.3. 4 - rəqəm növ (xırdabuynuzlu heyvan) kodu;

6.5.4. XXXXXXXX - 8 rəqəm heyvanın seriya nömrəsi.

6.6. Vizual birkada xüsusi tanınma nömrələri aşağıdakı qaydada qeyd olunmalıdır:

6.6.1. birkanın dəlikli hissəsinin uzunluğu 35-55 mm, eni 30-50 mm, mil hissəsinin isə uzunluğu 35-40 mm, eni 30-50 mm olmalıdır;

6.6.2. ölkə kodu Azərbaycan Respublikası üçün birkanın yuxarı hissəsində əks olunur, hündürlüyü ən azı 5 mm olan böyük hərflərlə "AZ" kimi işarələnməlidir;

6.6.3. loqotipinin altında heyvanın identikləşməsini təmin edən ştrixkod yerləşdirilməlidir. Ştrixkodun təsviri olan birkalar üçün boş sahənin eni birkanın sağ və sol uclarından ən azı 4 mm məsafədə və hündürlüyü isə ən azı 5 mm-ə bərabər olmalıdır;

6.6.4. rəqəmlərin ölçüsü üst sırada minimum 5 mm, aşağı sırada isə 12 mm-dən az olmamalıdır;

6.6.5. birinci sırada Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin logosu, ikinci sırada sırada 5 simvol (ilk iki simvol - ölkə kodu (AZ), sonrakı 1-ci rəqəm heyvan növünün kodu, digər 2 rəqəm isə heyvanın seriya nömrəsindəki ilk rəqəmlər) eyni sıra ilə yazılır. Üçüncü sırada isə heyvanın seriya nömrəsinin sonrakı 7 simvolu qeyd olunmalıdır.

6.7. Xırdabuynuzlu heyvanlar üçün boş vizual birkaların ölçüləri bu Təlimatın 6.6.1-ci yarımbəndində uyğun olmalıdır.

6.8. Xüsusi tanınma nömrələri qeyd olunan radiotezlikli nişanlanma vasitələrinin ölçüləri: mil hissəsinin diametri 22-34 mm, dəlikli hissəsinin diametri 23-35 mm olmalıdır.